

RƏHMAN BAYRAM

## BÖYÜK GÜNAH EYLƏMİŞİK, ERMƏNİYƏ XALQ DEMİŞİK

Tanrı bağışlasın bizi,
Əhv eləsin səhvimizi.
Bəxşiş edib evimizi,
Böyük günah eyləmişik,
Erməniyə xalq demişik.

Vicdan bizə sipər olub,
Tolerantlıq çəpər olub,
İfrat qonaqpərvər olub,
Böyük günah eyləmişik,
Erməniyə xalq demişik.

Dar günündə kömək verib,
Hərdən ürək-dirək verib,
Ac olanda çörək verib,
Böyük günah eyləmişik,
Erməniyə xalq demişik.

İnsanlıq kor edib düzü,
Düymamışıq şərəfsizi,
Vandal niyyətli dinsizi,
Böyük günah eyləmişik,
Erməniyə xalq demişik.

Torpaq alıb, dinməmişik,
Sərvət çalıb, dinməmişik,
Qırğın salıb, dinməmişik,
Böyük günah eyləmişik,
Erməniyə xalq demişik.

## QORX

Qorxma sözü düz deyəndən,
Dalda giley edəndən qorx.
Haram yeyib, sərvət üstə,
Bir-birini didəndən qorx.

"Yal" görəndə məst olandan,
Vicdanına his dolandan,
Təmənnalı dost olandan,
Şərdən xeyir güdəndən qorx.

Rəhman, üzmə sirdaşını,
Sil Vətənin göz yaşını,
Şöhrət üçün qardaşını,
Tora salıb gedəndən qorx.

## QOY UCALIM ŞƏHİD KİMİ

*Vətən uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizə həsr edirəm.*

Vətən namus, Vətən arsa,
Diyarım gözəl diyarsa,
Qismətimdə ölüm varsa,
Qoy ucalım şəhid kimi.

Dünyaya səs salmaq üçün,
Vətən daşı olmaq üçün,
Yaddaşlarda qalmaq üçün,
Qoy ucalım şəhid kimi.

Torpağıma can lazımsa,
Qarabağa qan lazımsa,
Vətənə qurban lazımsa,
Qoy ucalım şəhid kimi.

Qarabağsız bu dünya dar,
Rəhman Vətəndə bəxtiyar,
Ondan uca zirvəmi var?
Qoy ucalım şəhid kimi.

## UĞRUNDA QAZİ OLMUŞAM

Gözün aydın, ana Vətən,
Uğrunda qazi olmuşam.
Qürurluyam, fəxr edirəm,
Uğrunda qazi olmuşam.

İgid oğul olmaq üçün,
Tarixə iz salmaq üçün,
Qarabağı almaq üçün,
Uğrunda qazi olmuşam.

Könüllü getdim cəbhəyə,
Torpaq bütöv olsun deyə,
Can ataraq şəhidliyə,
Uğrunda qazi olmuşam.

Düşmənləri üzmək üçün,
Başlarını əzmək üçün,
Torpaqda dik gəzmək üçün,
Uğrunda qazi olmuşam.

Kaş, zəfərlə sökülsün dan,
Bütövləşsin Azərbaycan,
Sənsiz nəyə lazım bu can,
Uğrunda qazi olmuşam.

## *İLHAMLADIR BÖYÜK ZƏFƏR*

Vətəni qurtarmaq üçün,
Torpağı qaytarmaq üçün,
Cəbhələri yarmaq üçün,
İgid əsgər, göstər hünər,
İlhamladır böyük zəfər!

Düşmənlərin gözünü vur,
Alnından at, üzünü vur,
Əllisini, yüzünü vur,
Arxandadır ər oğlu ər,
İlhamladır böyük zəfər.

Alınacaq Cıdır düzü,
Silinəcək düşmən izi,
Güldürəcək üzümüzü
Zəfərlə açılan səhər,
İlhamladır böyük zəfər!

Sevinəcək Kəlbəcərim,
Xocalım, Şuşam, Tərtərim,
Coşar Qarqarım, Həkərim,
Eşidib müjdəli xəbər,
İlhamladır böyük zəfər!

Daim sülhə mayaq olan,
Vətən üçün oyaq olan,
Millətinə dayaq olan,
Baş Komandan, ali rəhbər,
İlhamladır böyük zəfər!

## *QARABAĞ AZƏRBAYCANDIR*

Vətən eşqi könlümüzdə,
Ona fəda özümüz də,
İstər dağda, istər düzdə,
Döyüşümüz sonacandır,
Qarabağ Azərbaycandır!

Yaxındadır zəfərimiz,
Qarabağa səfərimiz,
Bu yolda hər nəfərimiz,
Doğma Vətənə qurbandır,
Qarabağ Azərbaycandır!

Otuzdu həsrətin yaşı,
Əzizdi torpağı, daşı,
Axar gözdən sevinc yaşı,
Zəfər ülvi həyəcandır,
Qarabağ Azərbaycandır!

## *MÜBARİZ*

Allah sevdiyini imtahan eylər,
Sınaqdan uğurla çıxdı Mübariz.
Bir qəhrəman kimi elin gözündə,
Ucalıb, zirvəyə qalxdı Mübariz.

Yoxsul ailədə dünyaya gəlib,
Vətən namusunu qeyrəti bilib,
Qırğı tək düşmənin bağrını dəlib,
Hayları səngərə yıxdı Mübariz.

Hərbi hissəsini gizli tərk edib,
Təkcə bir ordunun üstünə gedib,
Beş saata xeyli düşmən məhv edib,
Şimşək tək parlayıb çaxdı Mübariz.

Bəd xəbər eşitdim, büküldü belim,
Boğuldum qəhərdən, tutuldu dilim,
Ağladı Vətənim, ağladı elim,
Xalqın ürəyini yaxdı Mübariz.

## *VUR, KOMANDİR, VUR*

*Vətənpərvər, qəhrəman komandir,*
*zabit və əsgərlərimizə həsr edirəm*

Azad et torpağı, qal yaddaşında,
Tarix yaz Yurdumun hər bir daşında,
Vətənin uğrunda, haqq savaşında,
Qoluna güc gəlsin, gözlərinə nur,
Millət arxandadır, vur, Komandir, vur.

Torpağa, millətə, elə bağlısan,
Vətən fədaisi, Vətən oğlusan,
Babəksən, Nəbisən, qoç Koroğlusan,
Düşmənin önündə əyilmə, dik dur,
Millət arxandadır, vur, Komandir, vur.

Alın dığaları mühasirəyə,
Erməni zabiti salın tələyə,
Andranik yaddan çıxmasın deyə,
Bir qulağını kəs, o birini bur,
Millət arxandadır, vur, Komandir, vur.

Alıb Qarabağı, Göyçəyə girin,
Soysuz ermənin dərsini verin,
Sizi hədəf alan hər snayperin,
Alnından nişan al, gicgahından vur,
Millət arxandadır, vur, Komandir, vur.

## ŞƏHİD ANASININ ÖPDÜM ƏLİNDƏN, QAZİ ANASININ ÖPDÜM ƏLİNDƏN

*Şəhidlərimizə,o cümlədən şəhid olan*
*həkimlərimizə allah rəhmət eləsin.*
*Cəbhədə yaralı əsgərlərimizi həyata qaytaran*
*fədakar həkimlərimizə həsr edirəm.*

Əsgər yarasına məlhəm elədim,
Yaralı əsgərin öpdüm əlindən.
Əl açıb Tanrıdan şəfa dilədim,
Yaralı əsgərin öpdüm əlindən.

Yudum göz yaşımla yanaqlarını,
Al-qana boyanmış dodaqlarını,
Sarıdım əlimlə ayaqlarını,
Yaralı əsgərin öpdüm əlindən.

Bir anlıq kövrəlib gözünü sıxdı,
Bu halı könlümü yandırıb yaxdı,
Ümidlə vurduğum iynəyə baxdı,
Yaralı əsgərin öpdüm əlindən.

Gördüm bir başqası son nəfəsdədi,
Gözləri gözümdə, o, can üstədi,
Baxışları məndən həyat istədi,
Bir qazi əsgərin öpdüm əlindən.

Rəhmanam, bu dəhşət getsin gəlməsin,
Amandı, millətim şəhid verməsin,
Qoy zəfər bayrağın taxanlar desin,
Şəhid anasının öpdüm əlindən,
Qazi anasının öpdüm əlindən.

## İNCİDİM

Röyada füsunkar bir gölə döndüm,
Nankorlar suyumdan içdi, incidim.
Bülbülü yaşadan bir gülə döndüm,
Bir nadan dəryazla biçdi, incidim.

Bir ömür vüsala səslədiyim eşq,
İncə duyğularla süslədiyim eşq,
Sevgi bağçasında bəslədiyim eşq,
Sevdasız bir bağa köçdü, incidim.

Bənövşə qoruyan kol oldum bir an,
Qələbə sevinci bol oldum bir an,
Cənnət Qarabağda yol oldum bir an,
Üstümdən yağılar keçdi, incidim.

Ayıldım, gözümdə ucaldı həyat,
Baharın eşqindən güc aldı həyat,
Torpaq həsrətindən qocaldı həyat,
Dedilər ki, həyat puçdu, incidim.

## ŞUŞADA

*Gözün aydın, əziz Xalqım, Şuşa artıq bizimdir!*

Azad oldu Qarabağın baş tacı,
Xəzan ilk bahara döndü Şuşada,
Müzəffər ordumuz etdi əlacı,
Erməni ümidi söndü Şuşada.

Nə gözəl duyğudu hər zəfər çağı,
Əsgərlər vandala çəkdilər dağı,
İllərdi yüksələn düşmən bayrağı,
Nəhayət, ömürlük endi Şuşada.

Müqəddəs torpağım uludur-ulu,
Xalqımın keçmişi şərəflə dolu,
Üzeyir bəstəli, Cavad duyğulı,
Himnimiz vüqarla dindi Şuşada.

Həqiqət üzülməz, hərdən iincələr,
Yaranar Şuşada neçə incılər,
Ana təbiət də artıq dincələr,
Barıt qoxusundan indi Şuşada,

Şəhidlərin qanı yerdə qalmadı,
Şuşalı arzular şükür solmadı,
Yağının yuxusu bax, çin olmadı,
Taleyi tərsinə çöndü Şuşada.

# ŞUŞA

Ucaldı məsciddən ilk azan səsi,
Fərəhdən kövrəlib ağladı Şuşa.
Yayıldı aləmə keyfi, nəşəsi,
Xəbis ürəkləri dağladı Şuşa.

Seyr etməsən gedəcəkdi göz əldən,
Cıdır düzü heç doyarmı gözəldən?
Xarı bülbül vəfalıdır əzəldən,
Bir vüsal eşqiylə çağladı Şuşa.

Vətəndə vətənsiz bezməsin deyə,
Dərdləri sıraya düzməsin deyə,
Bir daha ayrılıq üzməsin deyə,
Ruhunu Vətənə bağladı Şuşa.

# EY DOST

İlana bal versən zəhər qusacaq,
Nankor xislətində qalacaq, ey dost.
Satqın ömür boyu qapı pusacaq,
Özünü hörmətdən salacaq, ey dost.

Yaralı buraxma əfi ilanı,
Kindi, küdurətdi buz kimi qanı,
Gözləyib səbirlə qisas zamanı,
Səni ürəyindən çalacaq, ey dost.

Dərd var ki, vədəsiz qocaldar səni,
Paxıllıq, xəbislik alçaldar səni,
Xeyixah əməllər ucaldar səni,
Məkanın zirvələr olacaq, ey dost.

Vətəni sevməyən çox çətin anlar,
Qaytarar torpağı xalqa yananlar,
Şəhidlik qazanıb neçə cavanlar,
Cənnəti ərmağan alacaq, ey dost.

# YAXŞIDIR

Qürbətdə fərari yaşamaqdansa,
Vətəndə qazi tək gülmək yaxşıdır.
Bu şərəfsiz adı daşımaqdansa,
Şəhid tək şərəfli ölmək yaxşıdır.

Bir sevda oduna yanan ürək ol,
Həsrətin saçını yolan külək ol,
Elin dərdinə yan, xalqa kömək ol,
Millətin qədrini bilmək yaxşıdır.

Xeyirxah insanlar imdada çatar,
Dara düşənlərin əlindən tutar,
Yol azma, azanı yoluna qaytar,
Vaxtında imana gəlmək yaxşıdır.

# OYNAMA

*Haram yolla varlanıb, üstəlik də*
*xalqı incidənlərə həsr editəm.*

Sən toxsan, fəqiri hardan duyasan?
Yoxsulların əməyiylə oynama.
Nə vaxtsa ahları tutacaq səni,
Bu həyatın gerçəyiylə oynama.

Kasıblar ac, çörək qalıb tələdə,
Ac bülbüllər könül verməz gülə də,
Çox arzular yarım qalıb hələ də,
Ürəklərin diləyiylə oynama.

Ataların dərdi bitmir, nədəndi?
Övlada toy-büsat etmir, nədəndi?
Sevənlər vüsala yetmir, nədəndi?
Aşiqlərin ürəyiylə oynama.

Əyrilər çoxalıb, gedir duz əldən,
Olacaqmı bu müşgülü düzəldən?
Toxun acdan xəbəri yox əzəldən,
Bu millətin çörəyiylə oynama.

# ANA VƏTƏN

Əvəz edə bilməz nə sərvət, nə yar,
Anamı yadıma salmayımmı bəs?
Qocalıb, saçına ələnəndə qar,
Öpüb, qayğısına qalmayımmı bəs?

Ey Vətən, anam tək əzizsən mənə,
Bütün varlığımla bağlıyam sənə,
Sənin zəfərinə, sənin hüsnünə,
Şeir qoşub, ilham almayımmı bəs?

Əbədi kök salıb geniş sinəmdə,
Sənin ana qəlbin, ata eşqin də,
Bir an Vətənimdən ayrı düşəndə,
Bulud tək boşalıb dolmayımmı bəs?

Olmuşam vurğunu saf təbiətin,
Həm sadiq dostluğun, həm məhəbbətin,
O qədər çəkmişəm torpaq həsrətin,
Vüsal nəğməsini çalmayımmı bəs?

Gəzib dolansam da bütün dünyanı,
Unuda bilmərəm Azərbaycanı,
İlhama gətirib eşqin Rəhmanı,
Eşqinlə bəxtiyar olmayımmı bəs?